**Zaur Cahangir oğlu Əsədov**
**AMEA İqtisadiyyat İnstitutu, doktorant**
**E-mail: zaur.asadov.89@gmail.com**
**UOT: 338.45: 658.01; JEL: L67; L60.**

# Azərbaycanın emal sənayesində yaradılan əlavə dəyər və onu formalaşdıran amillər

***Xülasə***

*Tədqiqatın məqsədi Azərbaycanın emal sənayesində müxtəlif amillərin təsiri nəticəsində yaradılan əlavə dəyərin həcmi və strukturunda başverən dəyişikliklərin müəyyən edilməsi əsasında müvafiq müəyyən ehtiyat imkanlarını aşkar edərək onlardan səmərəli istifadə edilməsinə dair tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir. Tədqiqatın aparılmasında sistemli yanaşma, qruplaşdırma, statistik təhlil və riyazi-statistik modelləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, emal sənayesinin ölkə iqtisadiyyatında və orada yaradılan əlavə dəyərin formalaşmasında öz mövqeyini ildən-ilə genişləndirir. Sahədə mövcud istehsal fondlarının dəyəri ilə istehsal edilən məhsul, yaradılan əlavə dəyər və aralıq istehlak arasında sıx korrelyasiya əlaqəsi mövcuddur. Məqalədə həmin əlaqələr müvafiq qrafiklər və matrisa formasında təsvir edilmişdir. Emal sənayesində yaradılan əlavə dəyərin məbləğinin artırılması istiqamətində əməli xarakterli tövsiyyılər verilmişdir.*

***Açar sözlər:*** *emal sənayesi,əlavə dəyər, əsas fondlar, aralıq istehlak, korrelyasiya.*

## Problemin qoyuluşu

Kəskin rəqabət mübarizəsi şəraitində Azərbaycan Respublikasında qarşıda duran başlıca vəzifələr içərisində qeyri-neft sektorunu inkişaf etdirməklə innovasiya və ixrac yönümlü iqtisadiyyatın, eləcə də idxalın əvəzləşdirilməsinin təmin edilməsidir. Son 15 ildə həyata keçirilən sistemli, islahatlar nəticəsində ölkəmizdə biznes mühiti üçün yaradılan münbit şərait nəticəsində ölkənin beynəlxalq reytinq göstəricilərində mövqenin yüksəldilməsi də diqqəti cəlb edir. Artıq davamlı şəkildə həyata keçirilən islahatlar öz müsbət nəticəsini verməkdədir. Belə ki, qeyd edilən illər ərzində milli iqtisadiyyat sektorunda əsaslı struktur dəyişikliyi təmin edilmiş və qeyri-neft sektorunun payı xeyli dərəcədə yüksəlmişdir. Həyata keçirilən uğurlu iqtisadi siyasəty və islahatlar nəticəsində Ümumi Daxili Məhsulda (ÜDM) qeyri - dövlət bölməsinin payı 2005-ci ildə 77,8%-dən 2021-ci ildə 83,5 %, o cümlədən, sənaye sektorunda 84,5%-dən 88,8%-ə çatmışdır [3, s.356]. Əldə edilən nailiyyətləri yüksək qiymətləndirərkən onu da qeyd etmək lazım gəlir ki, sənaye sahələrində yaradılmış əlavə dəyərin tərkibində və ÜDM-də emal sənayesi məhsullarının həcmi və xüsusi çıkisi yüksələn xəttlə artsa da, onun ölkə iqtisadiyyatındakı ümumi payı azalmaqdadır. İxracın tərkibində emal məhsullarının xüsusi çəkisi aşağıdır. Müəssisələrin anbarlarında hazır məhsulı ehtiyatının (qalığının) həcmi ildən-ilə artır, müəssisələrin xeyli hissəsi zərərlə işləyir, kapital verimi göstəricisinin səviyyəsi ildən –ilə aşağı düşməkdədir. Görünür elə bn səbəblərdən də Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə [1] və onların həyata keçirilməsi mexanizmini özündə ehtiva edən Strategiyada [2] növbəti onilliklərdə inkişafın yeni sosial –iqtisadi artım modelinin bazasında həyata keçirilməsi, bu modelə ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etmək, dayanıqlı, inklüziv inişafı təmin edən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modelinin müasirləşmə strategiyasının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Həmin hədəflər və çağırışlar kontekstində ölkənin emal sənayesinin inkişafı və orada yaradılan əlavə dəyərin dinamikliyinin təmin edilməsi öz aktuallığı ilə çıxış edəcəkdir.

**Emal sənayesinin ölkə iqtisadiyyatında yeri**

Rəsmi statistik məlumata görə, 2022-ci ilin əvvəlində respublika ərazisində 24 alt sahəni özündə cəmləşdirən 2777 emal sənayesi müəssisələri fəaliyyət göstərmişdir. Onların 61%-i – mikro, 21,6%-i - kiçik, 17,4%-i isə orta və iri statusa malikdir [4]. Onların 2010-cu illə müqayisədə sayı 145,5% artmışdır, istehsal indeksi 10,2 punkt, istehsalın sahə strukturundakı payı – 12,9 punkt, emal sənayesində yaranan dəyərin fiziki həcm indeksi isə - 43,2 punkt yüksəlmişdir. Hesablamalar göstərir ki, ölkənin sənaye sektorunda fəaliyyət göstərən bütün müəssisələrin anbarlarında saxlanılan hazır məhsul ehtiyatının (qalığını) mütləq əksəriyyəti emal müəssisələrin payına düşür. Əgər 2010-cu ildə həmin məhsul qalığının xüsusi çəkisi 77,2%-i, 2015-ci ildə 64,1%-i təşkil etmişdirsə, sonrakı üç ildə onun səviyyəsi yüksələn xəttlə artmış və 2021-ci ilin sonunda 88,9%-ə çatmışdır ki, bu da bazis ili ilə müqayisədə 11,7 punkt artım deməkdir. Araşdırmalar göstərir ki, 2021-ci ildə emal sənayesi müəssisələrinin anbarlarında qalan 629,4 mlyn. man məhsulun 19%-ni kimya; 16,9%-ni neft emal; 14,8%-ni qida məhsulları; 9,1%-ni maşın və avadanlıqlar, 7,3%-ni metallurgiya sənayesi məhsulu 5,9%-ni tikinti materialları, hər biri 5,5 % olmaqla müxtəlif növ içkilər və toxuculuq məmulatları, 2,9%-ni mebel; 2,3%-ni avtomobil, qoşqu və yarımqoşqular, 2,3%-ni komputer, elektron və optik məhsullar təşkil etmişdir [4]. Ədalət naminə qeyd etmək lazımdır ki, son illər ərzində emal sənayesinin bütünlükdə sənaye sektorundakı mövqeyi güclənməkdədir. Bunu şərtləndirən başlıca amil qeyri - neft sektorunun inkişafı ilə əlaqədar yeni sahibkarlıq subyektlərinin, eləcə də innovasiya infrastrukturunun (texnoparklar, sənaye məhəllələri, aqroparklar, müştərək müəssisələr, holdinq) yaradılmasıdır. Aparılan müqayisəli təhlil göstərir ki, əgər 2010-2021-ci illərdə bütünlükdə ölkənin sənaye sektorunda müəssisələrin sayı 139,2%, arada istehsal edilən məhsulların həcmi 197,4%, yaranan əlavə dəyər 180% artmışdırsa, həmin göstəricilərin səviyyəsi emal sənayesində uyğun olaraq; 145,5%; 2,8 dəfə və 3,2 dəfə təşkil etmişdir. Həmin dövrdə sənaye də əlavə dəyərin ÜDM-də payı 9,2 punkt azaldığı halda, emal sənayesinin payı 4,4 punkt artmışdır. Müqayisə edilən dövrdə bütün sənayedə əsas kapitala yönəldilən vəsaitin məbləği 175,6% artdığı halda, emal sənayesində artım 3,93 dəfə təşkil etmişdir. Nəticədə, həmin vəsaitin sənayedəki payı 14,8 punkt çoxalmışdır. Lakin ölkə sənayesi ilə müqayisədə emal sənayesində kapital (investisiya) verimi, eləcə də yaranan əlavə dəyər üzrə kapital verimi xeyli dərəcədə azalmışdır. Həmin azalmanı şərtləndirən amilləri və onların təsir dərəcəsini müəyyən etmək üçün tərəfimizdən riyazi-statistik qiymətləndirməyə üstünlük verilmişdir.

**Əsas istehsal fondlarının iqtisadi göstəricilərə təsirinin qiymətləndirilməsi**

Son 17 ilin baza məlumatları əsasında müasir riyazi statistik modelləşdirmə üzrə hazır zərflərdən istifadə edərək mövcud əsas fondların istehsal edilən məhsulun həcminə, yaradılan əlavə dəyərə və aralıq istehlakın ümumi həcminə təsirləri müəyyən edilmiş və hesablamaların nəticələri ayrı-ayrı diaqramlarda öz əksini tapmışdır. Hesablama üçün istifadə edilən baza məlumatları 3 saylı cədvəldə əks etdirmişdir.

**Cədvəl 1.**

**Emal sənayesində ƏİF-ın mövcudluğunun digər iqtisadi ğöstəricilərə təsirinin riyazi-statistik qiymətləndirilməsi**

| | Əsas istehsalın fondları | İstehsal edilən məhsulun həcmi | Yaradılan əlavə dəyər | Aralıq istehlakın ümumi həcmi |
|---|---|---|---|---|
| **2005** | 3057 | 3159 | 813 | 2346 |
| **2006** | 3244 | 4311 | 1540 | 3104 |
| **2007** | 3498 | 4919 | 1672 | 3992 |
| **2008** | 3778 | 5700 | 1938 | 4011 |
| **2009** | 4141 | 4836 | 1693 | 3288 |

| | | | | |
|---|---|---|---|---|
| **2010** | 4385 | 5746 | 2012 | 3735 |
| **2011** | 5174 | 6393 | 2270 | 4155 |
| **2012** | 5623 | 7032 | 2532 | 4592 |
| **2013** | 5977 | 7244 | 2609 | 4709 |
| **2014** | 7352 | 8061 | 2902 | 5288 |
| **2015** | 7210 | 7910 | 2714 | 5196 |
| **2016** | 8082 | 8900 | 3293 | 5936 |
| **2017** | 7935 | 9718 | 3306 | 6411 |
| **2018** | 8356 | 10486 | 3700 | 6785 |
| **2019** | 8296 | 11808 | 4098 | 7710 |
| **2020** | 11737 | 11821 | 4428 | 7861 |
| **2021** | 11908 | 16308 | 6337 | 9971 |
| Mənbə: [3,4,5] | | | | |

Aparılan hesablamalar nəticəsində Azərbaycanın emal sənayesində mövcud olan əsas istehsal fondları (ƏİF) ilə orada istehsal edilən məhsulun həcmi yaranan əlavə dəyər və aralıq istehlakın, eləcə də ayrı-ayrı göstəricilər arasındakı riyazi asılılıqlar aşağıdakı diaqramlarda öz əksini tapmışdır.



**Diaqram 1.**
**İstehsal edilən məhsulun həcmi**



**Diaqram 2.**
**Yaradılan əlavə dəyər ilə istehsal edilən məhsulun həcmi arasında əlaqə**



**Diaqram 3.**
**Əsas istehsal fondları ilə yaradılan əlavə dəyər arasında əlaqə**




**Diaqram 4.**
**Aralıq istehlakın ümumi həcmi ilə yaradılan əlavə dəyər arasında asılılıq**




**Diaqram 5.**
**Əsas istehsal fondları ilə aralıq istehlakın ümumi həcmi arasında əlaqə**

Riyazi-statistik hesablama nəticəsində dəyişənlər arasındakı korrelyasiya əlaqələri cədvəldə əks etdirmişdir.

**Cədvəl 2.**

**Dəyişənlər arasında korrelyasiya matrisi**

| | Əsas istehsalın fondları | İstehsal edilən məhsulun həcmi | Yaradılan əlavə dəyər | Aralıq istehlakın ümumi həcmi |
|---|---|---|---|---|
| **Əsas istehsalın fondları** | 1 | | | |
| **İstehsal edilən məhsulun həcmi** | 0,952146 | 1 | | |
| **Yaradılan əlavə dəyər** | 0,949661 | 0,995376 | 1 | |
| **Aralıq istehlakın ümumi həcmi** | 0,952743 | 0,995054 | 0,988008 | 1 |

Mənbə: Riyazi hesablamanın nəticəsində tərtib olunmuşdur.

Yuxarıda təsvir edilən diaqramlardan və matrisa cədvəlindən göründüyü kimi korrelyasiya əmsalı bütün amilər (parametrlər) üzrə asılılıq vahidə yaxındır. Bu fakt onu göstərir ki, bütün seçilən göstəricilər arasında riyazi asılılıq yüksək sıxlığa malikdir. Başqa sözlə, ölkənin emal sənayesində ƏİF-in yeniləşməsi nəticə etibarı ilə emal sənayesinin digər makro - iqtisadi göstəricilərinə öz müsbət təsirini göstərməkdədir.

## Nəticə

Aparılan təhlil və qiymətləndirmə nəticəsində belə qənaətə gəlmək olar ki, emal sənayesi ölkənin sənaye sektorunda dinamik inkişafa qədəm qoymuş və arada keyfiyyət

dəyişiklikləri baş verməkdədir. Bununla yanaşı emal sənayesində istifadəsi vacib olan çoxsaylı ehtiyat imkanları mövcuddur. Bizim fikrimizcə, onlardan səmərəli istifadə etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədə uyğun hesab edirik: emal sənayesinin alt sahələrində ƏİF-in aktiv hissəsinin birbaşa xarici investisiyaların cəlb edilməsi hesabına yeniləşdirilməsi sahələrin innovasiya aktivkiyini yüksəltməyə təminat yaratmaqla yüksək keyfiyyətli geniş çeşidli ixrac yönümlü və idxalı əvəz edən məhsullar istehsalına imkan vermiş olacaqdır; emal müəssisələrində istehsal edilən məhsulların xammal kimi deyil, tam dəyər zənciri əsasında emalı idxaldan asılılığı azaltmaqla yanaşı yüksək enerji effekti əldə etməyə imkan vermiş olacaqdır; kiçik və mikro ölçülü müəssisələrin əlavə dəyərin yaradılmasında fəaliyyətinin genişləndirilməsi üçün müvafiq təşviq mexanizmlərindən istifadəyə üstünlük verilməsi; mikro və kiçik müəssisələrin müflisləşmədən qorumaq üçün onların sənaye məhəllələrinin və texnoparkların tərkibinə daxil edilməsi prosesinin intensivləşdirilməsi; qlobal dəyər zənciri nəzərə alınmaqla, respublikanın emal sənayesində müqayisəli üstünlüklərin aşkar edilməsi üçün elmi - tədqiqat işlərinin genişləndirilməsi əsasında prioritet sahələrin müəyyən edilməsi, onların arasında kooperasiya əlaqələrinin formalaşdırılması, seçilən sahələrdən məqsədli investisiya-innovasiya layihələrindən geniş istifadəyə üstünlük verilməsi.

**Ədəbiyyat**

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, "Xalq" qəzeti, 03 fevral 2021-ci il.
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial – iqtisadi inkişaf strategiyası. Bakı, 2022, 83s.
3. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, DSK, 2016, 780s.; 2022, 745s.
4. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, DSK, 2020, 165s.; 2022, 112 s.
5. Azərbaycanın Milli Hesabları. Statistik məcmuə. Bakı, DSK, 2019, 138 s.

***Заур Джахангир оглы Асадов***
***Докторант Института Экономики НАНА***
***E-mail: zaur.asadov.89@gmail.com***

***Добавленная стоимость, созданная в обрабатывающей промышленности Азербайджана и формирующие ее факторы***

***Резюме***

*Целью исследования является определение изменений в объеме и структуре созданной добавленной стоимости в обрабатывающей промышленности Азербайджана под влиянием отдельных факторов, выявление соответствующих резервов и разработка рекомендующий по их рациональному использованию. Припроведение исследования использовались такие методы, как системный подход, группировка, статистический анализ и экономико-статистическое моделирование. В результате исследования выявлено, что обрабатывающая промышленность из года в год усиливает свою позицию в укреплении экономики, страны и формировании в них добавленной стоимости. Определено, что между стоимостью производственного фонда, производимой продукцией, созданной добавленной и потребительской стоимостью имеется тесная корреляционная связь. В статье эти связи отражены в виде графика и матрицы. Предложены практические рекомендации по увлечению объема добавленной стоимости в обрабатывающей промышленности*

***Ключевые слава:*** *обрабатывающая промышленность добавленная стоимость основные фонды, потребительская стоимость, коррекция.*

***Zaur Jahangir Asadov***
***Doctoral student of the Institute***
***of Economics of ANAS***
***E-mail: zaur.asadov.89@gmail.com***

***Added value created in the processing industry of Azerbaijan and factors that shape it***

***Summary***

*The purpose of the study is to determine the changes in the volume and structure of the added value created in the manufacturing industry of Azerbaijan under the influence of certain factors, to identify the corresponding reserves and to develop a recommendation for their rational use. When carrying out the research, such methods as system approach, grouping, statistical analysis and economic-statistical modeling were used. As a result of the study, it was revealed that the manufacturing industry is strengthening its position year by year in strengthening the economy, the country, and creating added value in them. It is determined that there is a close correlation between the cost of the production fund, the manufactured product, the created added value and the consumer value. In the article, these connections are reflected in the form of a graph and a matrix. Proposed practical recommendations for attracting the volume of added value in the manufacturing industry*

***Keywords:*** *processing industry, added value, basic funds, consumer value, correction.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 16.12.2022.***
***Çapa qəbul olunub: 22.12.2022.***